MADDƏ 4 — RƏSMİ GEYİM


4.1. Məqsəd

Bu Maddə yarışda iştirak edən bütün tərəflərə aid geyim standartlarını müəyyən edir.

4.2. Geyimə dair tələblər

Qrup	Geyimə dair tələb	Öhdəlik
Federasiya rəhbərliyi	Qara kostyum; sol döşdə DAF loqosu; qara şalvar; qara klassik ayaqqabı	Bütün yarış və seminarlarda məcburidir
Sınayçılar	Göy polo köynək (DAF loqosu); qara şalvar; yumşaq altlıqlı düz idman ayaqqabısı; qolbaqlar (sağ qolda göy, sol qolda qırmızı); fit; tünd göy/qara corab	Hər hansı dəyişikliyə yalnız Baş Sınayçının əvvəlcədən icazəsi ilə yol verilir.
Məşqçilər	Ağ polo köynək (DAF loqosu); qara şalvar; qara ayaqqabı; tünd göy/qara corab	Akkreditasiya kartı boyundan asılır.
Koordinatorlar	Qırmızı polo köynək (DAF loqosu); qara şalvar; qara ayaqqabı; tünd göy/qara corab	Akkreditasiya kartı boyundan asılır.
Atletlər	Çapan (qara gödəkçə + krem rəngli şalvar); künc rəngində kəmər (ÇORO = göy, YORO = qırmızı)	Zinət əşyaları və əlavə geyim qadağandır

Rəsmi geyim nümunələri



Status: *Mərkəz Sınayçısı*
Təfərrüat: *Göy polo (DAF loqosu), qara şalvar, qara idman ayaqqabısı.*

Qeyd: *Sağ qolda GÖY, sol qolda QIRMIZI qolbaq — künc rənglərinə uyğun: ÇORO (sağ künc, göy) və YORO (sol künc, qırmızı).*



Status: *Təşkilat komitəsi*
Təfərrüat: *Tam qara klassik kostyum. Qara köynək, qara qalstuk, qara ayaqqabı.*

Qeyd: *Pencəyin sol yaxasında DAF-ın rəsmi metal nişanı.*



Status: *Yarışın Disiplin Koordinatoru*
Təfərrüat: *Qırmızı polo köynək, qara şalvar.*

Qeyd: *Akkreditasiya kartı boyundan asılır.*



Status*: Məşqçi*
Təfərrüat: *Ağ polo (DAF loqosu), qara şalvar.*

Qeyd: *Akkreditasiya kartı boyundan asılmalıdır.*

4.3. Atletin avadanlığı

- Yanaq qoruyuculu dəbilqə;
- Əlcək / yarım əlcək;
- Ağız qoruyucusu və qasıq qoruyucusu;
- Sinə qoruyucusu — 15 yaşadək bütün iştirakçılar üçün məcburidir; 16 yaş və yuxarı kişi iştirakçılar istifadə etmir; bütün yaş qruplarında qadın iştirakçılar üçün məcburidir;
- Ayaq qoruyucuları.

i

Qoruyucu avadanlıq şalvarın altından geyinilir. Çapanın altından jilet və ya futbolka geyinmək qadağandır. Maddə 8-də konkret disiplin üçün başqa qayda nəzərdə tutulduqda həmin xüsusi qayda tətbiq olunur.

Metal diş aparatı — Baş Sınayçı ilə rəsmi həkimin birgə razılığını tələb edir.

Meydana girişdə geyim pozuntusu aşkarlanarsa, iştirakçıya onu aradan qaldırmaq üçün bir (1) dəqiqə vaxt verilir.

Eynək qadağandır. Yumşaq kontakt linzalara icazə verilir; məsuliyyəti atletin özü daşıyır.

4.4. Atletlər üçün rəsmi geyim nümunələri



Status: ATLETLƏR

Təfərrüat: *Alpaqut yarışlarına məxsus rəsmi geyimin adı Çapandır.*

Qeyd: *Rəsmi forma qara gödəkçə və krem rəngli şalvardan ibarətdir. Kəmərin və qoruyucu avadanlığın rəngi küncü göstərir: YORO (sol künc) üçün qırmızı, ÇORO (sağ künc) üçün göy. Bu rəng fərqi yarış zamanı atleti asan tanımaq və düzgün qiymətləndirmək üçün tətbiq olunur. Qoruyucu avadanlıq (dəbilqə, əlcək və s.) təhlükəsizliyi təmin etmək və zədələrin qarşısını almaq üçün geyinilir.*